Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Ermənistan savaşla bağlı son xəbərdarlıqlar qarşısında... İrəvan beynəlxalq ictimaiyyəti aldatma cəhdlərinin bumeranq effektini görməyə başlayır...

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ermənistan tərəfinin Şuşada təşkil etdiyi qondarma "andiçmə" ilə bağlı proses İrəvanın Dağlıq Qarabağ münaqişəsinin çözümündə siyasi həll yolundan hələ də uzaq olduğunu göstərir. Ekspertlər hesab edir ki, "andiçmə" şousu Qarabağ münaqişəsinin həllinə dair danışıqlara böyük zərbədir. Bu bir daha təsdiq edir ki, Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.**

Digər tərəfdən, bu fakt Ermənistanın sülh danışıqlarında beynəlxalq ictimaiyyəti aldatmağa yönələn cəhdlərində də özünü göstərir. Belə ki, düşmən danışıqlar aparmaq istədiyini desə də, zəbt edilmiş ərazilərdə atdığı addmlarla, əslində sülh prosesini ciddi sual altına alır. Hesab edilir ki, bu səbəbdən dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar Ermənistana qarşı daha ciddi təzyiq və sanksiyalar tətbiq etməklə onu beynəlxalq hüquq normalarına hörmətlə yanaşmağa məcbur etməlidir. Əks təqdirdə Azərbaycanın bunu güc yolu ilə etməsi qaçılmaz sayılır. Azərbaycan ordusunun düşməni lərzəyə salan son hərbi təlimləri fonunda bunu rusiyalı politoloq Vitali Arkov da xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Azərbaycan öz ərazisində, Ermənistanın bütün narahatlıqlarına rəğmən, hərbi təlim keçirmək hüququna malikdir:"Əgər bu beynəlxalq hüquq normalarına zidd deyilsə, Azərbaycan öz ərazisində hərbi təlim keçirmək üçün tam suveren hüquqlara malikdir. Mayın 18-dən başlayan hərbi təlimlər də heç bir beynəlxalq hüquq normalarına zidd deyil. Ermənistanın işğal altında saxladığı Azərbaycanın Dağlıq Qarabağ regionunda hərbi təlimlər keçirməsi isə beynəlxalq hüquq normalarının kobud surətdə pozulmasıdır. Bununla təkcə ATƏT-in Minsk Qrupu deyil, digər beynəlxalq təşkilatlar da məşğul olmalıdır. Əks təqdirdə Ermənistanın çox narahat olduğu və dünya ictimaiyyətinin istəmədiyi savaş başlanacaq. Çünki Azərbaycana başqa çıxış yolu qoyulmur".

Erməni siyasi ekspert Aram Amatuni də etiraf edir ki, Bakı savaşa başlasa, hadisələr Ermnənistan üçün proqnozlaşdırıla bilinməyən bir istiqamətdə cərəyan edə bilər:"Azərbaycan Qarabağ məsələsində mütləq şəkildə nəticəyə nail olmaq istəyir. Bunun üçün də lazımı hazırlıqlar aparır. Məsələn, Naxçıvanda və Qarabağ istiqamətində genişmiqyaslı hərbi təlimə başlayan Azərbaycan muxtar bölgəyə yeni raketlərin yerləşdirildiyini və İrəvanı hədəf aldığını elan edir. Bu açıqlama Qərb ekspert strukturları formatında verilib. Eyni zamanda, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Minsk Qrupu həmsədrləri ilə videokonfrans keçirib, həmin görüşdə nizamlama prosesində epidemiya aradan qaldırıldıqdan sonra hansı addımların atılmalı olduğu barədə danışıqlar aparıb. Həmsədrlər epidemiyanın zəiflədiyi zaman iki nazirin görüşünün təşkilindən danışıblar. Burada çox incə məqamlar var. Belə ki, Azərbaycan hərbi dillə diplomatik danışıqlarda iştirak edir. Bakının yurisdiksiyasında olan Naxçıvanın geosiyasi şantaj mənbəyinə çevrilə biləcəyi və ilk hədəfinin Ermənistan ola biləcəyi unikal bir vəziyyət yaranır".

Rusiyalı politoloq Yevgeni Mixaylov da qeyd edir ki, indiki halda Ermənistan yanlış addımlar atmaqla savaşa rəvac verir və bu zaman o, çox ehtiyat etdiyi Naxçıvan istiqamətindən də ciddi zərbə ala bilər: "Ermənistanın baş naziri Nikol Paşinyanın bu fonda son vaxtlardakı addımlarını başa düşmək çox çətindir. Belə ki, münaqişəni daha da qızışdırmaq istəməyən dövlət başçılarının tanınmamış qurumun başçılarının "andiçmə" mərasiminə gəlməyəcəkləri əvvəlcədən bəllidir. Eyni zamanda, Paşinyan bu hərəkətlərlə sülh prosesinə zərbə vurulduğunu da bilir. O halda Dağlıq Qarabağdakı qondarma qurumun başçısı Arayik Arutyunyanın "andiçmə" şousunu təşkil etməyə nə ehtiyac var idi?.

Fikrimcə, Nikol Paşinyan Qarabağdakı klanı yola gətirərək öz kürsüsünü qorumağa çalışır. Qarabağdakı dəstə Paşinyanla birgə gələn siyasətçilərin son vaxtlar Azərbaycan ərazilərini azad etməklə bağlı məsələni daha çox gündəmə gətirən Rusiya ilə qarşıdurmaya getdiyini görür. Paşinyan etdiyini edir və etdikləri də tam mənasızdır. Bakının hansısa mənfi addımına ümid edirsə, bu gülüncdür, çünki Bakıda Paşinyanın kim olduğunu artıq anlayırlar. Paşinyanın sona yaxınlaşdığı göz qabağındadır. Mövcud iqtisadi tənəzzül də, koronavirusa qarşı görülən tədbirlər də, Rusiya ilə münasibətlərin kəskin soyuması da xalqın narazılığına səbəb olur". Ekspertin fikrincə, Rusiyasız Paşinyan da, bütövlükdə Ermənistan da hər şeyini, o cümlədən dövlətçiliyi də itirəcək:"Bütün səyləri Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə yönəltməyin zəruri olduğu, Rusiyanın da mərhələli planı irəli sürdüyü bir vaxtda Paşinyan bütün bunları, o cümlədən Moskvanın mövqeyini də qulağardına vurur. Moskvada belə bir davranışı bəyənəcəkləri ağlabatan deyil, amma Paşinyanın, deyəsən, bunlar vecinə deyil. Moskva ona bir çox məsələlərdə səhv etdiyinə dair çoxdandır mesaj göndərib. Paşinyanın bu kimi hərəkətlərinin axırı yoxdur. Ermənistan dalana dirənib. Artıq çarəsiz qalan ətrafdakı qonşular hazırkı böhrandan çıxmağın yollarını göstərsələr də, Ermənistan "ulu və qədim" olduğuna inandığı üçün hamıya şərt qoya biləcəyini zənn edir. Amma səhv edirlər və zaman kimin haqlı olduğunu göstərəcək". Elə politoloq Vitali Arkov da bildirir ki, Paşinyan Bakı ilə yanaşı, Moskvanı da çox qəzəbləndirir:"Burada bir məsələ dəqiqdir ki, münaqişənin sülh yolu ilə çözümündə Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılması artıq həll olunmuş məsələdir. Hazırki Ermənistan hakimiyyəti bu prosesə başlamaqdan imtina etməklə cəbhədə gərginliyi artırmaq məqsədi güdür". Onun sözlərinə görə, Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesində hazırda top İrəvanın tərəfindədir:"Məhz İrəvan, hazırda hakimiyyətdə olan Nikol Paşinyan və onun komandasının simasında bu məsələdə Ermənistan daha əvvəllər Minsk Qrupu çərçivəsində üzərinə götürdüyü öhdəlikləri icra etməkdən boyun qaçırır. Ermənistan tərəfi Dağlıq Qarabağ ətrafında olan işğal edilmiş rayonları Azərbaycana geri qaytarmaq prosesinə başlamaqdan imtina edir. Bu gün Dağlıq Qarabağın gələcək statusu dialoq predmetidir. Burada həm ikitərəfli formatda, həm də beynəlxalq vasitəçilər cəlb etməklə müxtəlif variantlar müzakirə oluna, danışıqlar aparılar bilər. Lakin işğal altındakı rayonların qaytarılması artıq həll olunmuş məsələdir. Ermənistan tərəfi bu addımı atmasa, danışıqların gələcəyi mümkün deyil. Ermənistanın üzərinə götürdüyü öhdəlikləri icra etməkdən imtina etməsi onu göstərir ki, hazırkı Paşinyan hökuməti konfrontasiyaya meyllidir. Təəssüflər olsun, ancaq güc nümayişi ilə külü soyutmaq mümkündür. Hazırkı Ermənistan rəhbərliyi qoşunların təmas xəttində və Azərbaycan-Ermənistan sərhədində müxtəlif təxribatlar törədərək Azərbaycan tərəfini cavab tədbirləri görməyə sövq edir". Ekspert hesab edir ki, bu durumda savaşın başlanması Ermənistanın tam məğlubiyyəti ilə nəticələnəcək. Bu fonda ən yaxşı yol BMT qətnamələrinə uyğun olaraq ərazilərin azad olunmasıdır: "Amma Ermənistan hələ də BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi ilə bağlı qəbul etdiyi 4 qətnaməni həyata keçirməkdən imtina edir. Azərbaycan ərazilərinin mərhələli şəkildə işğaldan azad olunması həmin tələblərdən yaranıb. Bu yaxınlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov da münaqişənin mərhələli həllindən danışdı. Ermənistan nəticəsi bəlli olan savaşı istəmirsə, tədricən torpaqlardan çıxmalıdır".

Ümumiyyətlə, faktdır ki, Ermənistanın, bölgənin təhlükəsizliyi Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən, ermənilərin qonşu dövlətlərə qarşı məntiqsiz iddialardan əl çəkməsindən keçir. Azərbaycan torpaqlarının azad edilməsi, həm də ermənilər üçün xeyir gətirəcək. Onda bu ölkə sponsorların və dünya ermənilərinin ianələrinə möhtac qalmayacaq. Qarabağ münaqişəsinin həlli bölgədə yeni, daha təhlükəsiz, etibarlı şərait yaradar. Bunu İrəvanda da gözəl anlayırlar. İndi Ermənistanda vəziyyət qeyri-müəyyəndir. Ermənistanda çıxan "İrates" qəzeti də yazır ki, Qarabağ münaqişəsinin davamı İrəvan üçün böyük problemlər yaratmaqda davam edir:"Paşinyan keçmiş hakimiyyət nümayəndələrinin son qəpiyini müsadirə etməklə vəziyyətdən çıxmağa çalışır. Ermənistan baş nazirinin yaxın günlərdə keçmiş vəzifəlilərə qarşı yeni cinayət işi başladacağı gözlənir. Amma nə qədər ki, Ermənistan regionda transmilli layihələrin iştirakçısı olmayacaq, o qədər də iqtisadi problemlər ölkəni izləyəcək. Bu məsələdə Qarabağ münaqişəsinin Ermənistana ciddi əngəllər yaratdığı artıq açıq deyilməlidir. Üstəlik, münaqişə davam etdikcə müharibə təhlükəsi də həmişə qalacaq".

Burada düşmən mütləq nəzərə almalıdır ki, Azərbaycan tərəfi öz ərazisində daha bir erməni dövlətinin yaranmasına imkan və icazə verməyəcəyini dəfələrlə açıqlayıb. Bakı onu da bildirib ki, münaqişə BMT Nizamnaməsinin, Helsinki Yekun Aktının prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həll edilməli, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxmalı və bu torpaqlardan didərgin salınmış məcburi köçkünlər öz evlərinə geri qayıtmalıdır. Bunun üçün indiyə qədər diplomatiyadan istifadə edən Azərbaycan artıq beynəlxalq ekspertlərin Ermənistana xəbərdarlıq etdikləri kimi güc faktorunu da işə salmağa hazırdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**